


# "Qalib müəllim"

## Media nümayəndələri üçün müsabiqə

Təhsil Nazirliyinin təşkilatçılığı ilə media nümayəndələri arasında "Qalib müəllim" videohekayə müsabiqəsinə start verilir.

19 aprel-28 may tarixlərini əhatə edən müsabiqənin keçirilməsində məqsəd 44 günlük Vətən müharibəsində iştirak edən, eyni zamanda qalib əsgərin formalaşmasında rolu olan Azərbaycan müəllimlərinin tanıdılmasıdır.

**Müsabiqə aşağıdakı başlıqlar üzrə keçirilir:**

**- "Qalib əsgərin müəllimi"** – şagird və tələbələri vətənpərvər ruhda yetişdirən Azərbaycan müəllimi haqqında videooçerk;

**- "Ön cəbhədə döyüşən müəllim"** – Vətən müharibəsində iştirak etmiş əsgər, qazi və şəhid olan müəllimlərin həyat hekayəsi;

**Müsabiqə üzrə tələblər aşağıdakılardır:**

- Müsabiqədə ölkəmizdəki media qurumlarının nümayəndələri iştirak edə bilər;
- Müsabiqəyə göndərilən video 2 dəqiqədən artıq olmamalıdır;
- İştirakçı özü haqqında zəruri məlumatları (adı, soyadı, yaşı, yaşadığı şəhərin (rayonun) adı, təmsil etdiyi media qurumunun adı və tutduğu vəzifə, əlaqə telefonu) daxil etməklə hazırlanmış videonu 21 may 2021-ci il tarixinədək **press@edu.gov.az** elektron ünvanına göndərməlidir;
- Hər iştirakçı bir videohekayə göndərə bilər;
- Müsabiqəyə təqdim olunan videohekayələr "Qalib müəllim" ön sözü ilə başlamalıdır.

Müsabiqənin yekununda videohekayələr Təşkilat Komitəsi tərəfindən dəyərləndiriləcək və qaliblər müəyyən olunaraq təltif ediləcəklər.